Unikal. - 2023.-8 dekabr, №45. - S.13.

# Tarix yazan qəhrəmanlar...

***Astara elinin qəhrəman oğlu Kənan Hacıyev 44 günlük İkinci Qarabağ savaşında düşmənə qarşı son damla qanına qədər döyüşərək, 19 yaşında əbədiyyətə qovuşub. Bütöv bir xalqın qəhrəmanlıq simvoluna çevrilməklə adını Azərbaycanın yeni, şanlı səhifəsinə yazan gənc əsgər ölümündən sonra dövlət tərəfindən "Vətən uğrunda", Füzulinin, Xocavəndin azadlığına görə medalları ilə təltif olunub.***



Qəhrəman Vətən sevdalısı Kənan Haçıyevin müqəddəs şəhidlik zirvəsinə ucaldığı vaxtdan 3 il ötdü. Torpağa tapşırıldığı gün münasibətlə rayon rəhbərləri, sadə insanlar, eləcə də Astarada fəaliyyət göstərən mədəniyyət nümayəndələri qəhrəmanın yatdığı torpağa baş çəkib, ehtiram əlaməti olaraq məzarına təzə güllərdən çələng hörüblər. Söhbət zamanı o da bildirilib ki, şəhid qanı axmayan torpaqdan Vətən olmaz. O, qızıl qanla torpaq canlanır, Vətən yaşayır. Kənan kimi qəhrəmanlarımız bir daha bunu təsdiq etdilər. Onlar torpaq uğrunda canından keçməklə onu Vətən etdilər...

Şəhid Kənan İmran oğlu Hacıyev 2001-ci il noyabrın 17-də Astara rayonunda dağlar qoynuna sığınan Anbuba kəndində dünyaya göz açıb. Vətən müharibəsi zamanı Füzuli və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə əsl qəhrəmanlıq nümunəsi göstərib və 6 oktyabr tarixində şəhidlik zirvəsində ucalıb. Nəşi uzun müddət tapılmayıb. Noyabrın 9-da Kənan Hacıyevin şəhid olma xəbəri təsdiqlənib və bir müddət sonra doğma Anbuba kəndinə gətirilib, burada torpağa tapşırılıb.



İstərsə Birinci Qarabağ müharibəsində, istərsə də 44 günlük haqq savaşımızda Vətən naminə sinəsini düşmən gülləsinə sipər edib canından keçən qeyrətli, mərd övladlarımız çox oldu. Belə Vətən sevdalılardan biri də Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülən Birinci Qarabağ müharibəsinin şəhidi Səxavət Ələmdar oğlu Məhərrəmovdur. Masallı rayon Mərkəzi Kitabxanasının Təzə Alvadi kənd kitabxana filialında qəhrəman Vətən oğlunun anada olması 50 illiyi münasibətilə tədbir keçirildi. Onun doğma Azərbaycan yaşadıqca örnək olası həyat və döyüş yolundan tədbir iştirakçılara geniş məlumat verildi.

Bildirildi ki, Səxavət Məhərrəmov 1973-cü il qədim Oğuz yurdu, Ağbaba mahalının Qara-çanta kəndində dünyaya göz açıb. 1988-ci ildə daşnakların mənfur siyasəti nəticəsində Səxavət öz el-obasından didərgin düşüb, ailəsi ilə Bakının Lökbatan qəsəbəsində özlərinə yurd-yuva qurublar. 1990-cı ildə burada 106 saylı orta məktəbi bitirdikdən sonra 1 saylı Təmir-Tikinti İdarəsində işə düzəlib. Həm də o, Azərbaycanda Milli Azadlıq Hərəkatında fəal iştirak edib. Eyni zamanda erməni dığaların Qarabağın ədalətsiz işğalı onu rahat buraxmır. 1991-ci ilin noyabrında könüllü olaraq Vətənin müdafiəsinə yollanıb. Əvvəlcə daxili qoşunlarda xidmət edib, sonra isə təzəcən yaranan Milli Ordu sıralarına qoşulub. İgidliyi, cəsurluğu döyüşçü dostları arasında ona böyük hörmət qazandırıb. Bir sıra hərbi əməliyyatlarda xüsusi məharət ilə fərqlənib.

27 iyun 1992-ci ildə erməni faşistləri tərəfindən Ağdərənin strateji əhəmiyyətli Möhtarağ kəndinə hücum olunub. Kənd uğrunda qızğın döyüşlər gedib. Döyüş zamanı Səxavət tez-tez yerini dəyişib, düşmən mövqelərinə sarsıdıcı zərbələr endirib. Nəhayət, faşist xisləti ermənilər əllərində olan zirehli maşını itirdikdən sonra kəndi tərk etməyə məcbur olub. Bölmə geri dönərkən kəndin yaxınlığındakı meşədə mühasirəyə düşüb. Bu zaman Səxavət düşmən gülləsinə tuş gələrək qəhrəmancasına həlak olub. Qəhrəman döyüşçü Səxavət Məhərrəmov Bakı şəhərindəki Şəhidlər Xiyabanında torpağa tapşırılıb . 1992-ci ilin noyabr ayında "Milli Qəhrəman" adına layiq görülüb. Oxuduğu 106 saylı orta məktəbini onun adına verməklə, eləcə burada büstü qoyulub.

***Zəfər Orucoğlu, AJB üzvü***